**Qiymətli kağızlar üzrə 6 ayın nəticələri açıqlanmışdır**

Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin 2012-ci ilin birinci yarısı üzrə fəaliyyət Hesabatında bildirilir ki, bu dövr ərzində qiymətli kağızlar bazarı fəaliyyəti antiinflyasiya xarakterli pul siyasəti və bir sıra struktur amillərinin dəyişkənliyi fonunda davam etdirilmişdir. İli ilk altı ayı ərzində korporativ qiymətli kağızlar bazarının həcminin azalmasına baxmayaraq, dövlət qiymətli kağızlar bazarında qeydə alınmış artım bütövlükdə bazarın dinamikasına müsbət təsir etmiş və qiymətli kağızlar bazarı ötən ilin müvafiq dövrü ilə müqayisədə 55% artaraq 5,8 milyard manat təşkil etmişdir.

İlin birinci yarısı ərzində səhmlərin təkrar bazarında əməliyyatların sayının və həcminin artması səhm bazarının müsbət dinamikasını təmin etmişdir. Bu dövrdə korporativ borc bazarının əhəmiyyətli hissəsini təşkil edən Azərbaycan İpoteka Fondunun istiqrazları ilə əməliyyatların həcminin azalması bütövlükdə borc bazarının dinamikasına mənfi təsir etmişdir. İlin birinci yarısı ərzində korporativ istiqrazlar bazarında əməliyyatların sayı 7,9%, həcmi isə 41,6% azalaraq 146,6 milyon manat təşkil etmişdir. Azərbaycan ipoteka istiqrazlarının ilkin və təkrar bazarının həcmi cari ilin ilk yarısı ərzində ötən ilin müvafiq dövrü ilə müqayisədə 65,4% azalaraq 73,6 milyon manat təşkil etmişdir. Bütövlükdə cari il ərzində Azərbaycan İpoteka Fondunun 30 milyon manatlıq istiqrazları emissiya olunmuş, 23,1 milyon manatlıq istiqrazlar yerləşdirilmişdir.

Hesabat dövründə qiymətli kağızlar bazarının tənzimlənməsi tədbirləri davam etmiş, nəzarət mexanizmləri təkmilləşdirilmişdir. Bu dövrdə broker fəaliyyəti üzrə lisenziya müddətinin bitməsi ilə əlaqədar 2 lisenziya, diler fəaliyyəti üzrə lisenziya müddətinin bitməsi ilə əlaqədar isə 4 lisenziya yenilənmişdir. Altı ay ərzində peşəkar fəaliyyət ilə məşğul olan şəxslərə 5 fəaliyyət üzrə 12 ixtisas şəhadətnaməsi verilmişdir. 2012-ci ilin ilk yarısının nəticələrinə əsasən, peşəkar fəaliyyətlə məşğul olmaq üçün 34 lisenziya qüvvədə olmuşdur.

Altı ay ərzində səhmdarların hüquqlarının müdafiəsi, habelə səhmdarlar arasında münasibətlərin tənzimlənməsi tədbirləri təmin edilmişdir. Komitəyə 218 səhmdar cəmiyyəti ilə bağlı səhmdarların hüquqlarının pozulması barədə 116 şikayət ərizəsi və 13 müraciət daxil olmuşdur. Araşdırma aparılmış 82 səhmdar cəmiyyətin fəaliyyətində ciddi qanun pozuntuları aşkar olunduğuna görə həmin səhmdar cəmiyyətlərə qarşı 17,050 manat məbləğində inzibati cərimələr tətbiq edilmişdir. 92 səhmdar cəmiyyətə fəaliyyətlərində aşkar edilmiş qanun pozuntularının aradan qaldırılması haqqında icrası məcburi göstərişlər verilmişdir.

Hesabat dövründə lotereya fəaliyyətinin tənzimlənməsi tədbirləri də davam etdirilmişdir. «Azərlotereya» ASC tərəfindən edilən müraciətlərə əsasən, altı lotereya qeydiyyata alınmış və beləliklə «Azərlotereya» tərəfindən keçirilən lotereyaların sayı 11-ə çatmışdır. Hesabat dövründə, həmçinin, müxtəlif müəssisələr tərəfindən 42 stimullaşdırıcı lotereya keçirilmişdir.

Dövr ərzində lotereyaların keçirilməsi üzrə qanunvericiliyin tələblərinə riayət etməyərək icazəsiz stimullaşdırıcı lotereya təşkil edən dörd şirkətin lotereya kampaniyası dayandırılmış, lotereyaların təşkili və keçirilməsi ilə bağlı hesabatları təqdim etmədiyi üçün 2 stimullaşdırıcı lotereya təşkilatçısı Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsinə əsasən inzibati məsuliyyətə cəlb edilmişdir.

Stimullaşdırıcı lotereyaların təşkili və keçirilməsinin təkmilləşdirilməsi məqsədilə yeni «Stimullaşdırıcı lotereyaların təşkili və keçirilməsi» Qaydalar hazırlanmış və Ədliyyə Nazirliyi tərəfindən dövlət qeydiyyatına alınmışdır. Bundan əlavə, «Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi tərəfindən 2012-2013-cü illər üzrə elektron xidmətlərin göstərilməsinə dair Tədbirlər Planı»na müvafiq olaraq Komitənin internet səhifəsində lotereyaların təşkili və keçirilməsinə dair müraciətlərin elektron formada qəbulu və cavablandırılması mexanizmləri təşkil edilmişdir.

AYTƏN